Ülkər Tahir qızı Cabarova
*Bakı Dövlət Universiteti*
*Kitabşünaslıq və Nəşriyyat işi kafedrasının magistrantı*
ulkercabarova27@gmail.com

## KLASSİKLƏRİN ƏSƏRLƏRİNİN NƏŞRƏ HAZIRLANMASINDA PROFESSOR ƏZİZ MİRƏHMƏDOVUN ROLU

***Xülasə:*** *Məqalədə tanınmış tənqidçi və mətnşünas, Əməkdar Elm Xadimi, professor Əziz Mirəhmədovun mətnşünaslıq fəaliyyəti və klassiklərin əsərlərinin nəşrə hazırlanmasında göstərdiyi xidmətlər qeyd olunmuşdur.*
***Açar sözlər:*** *Əziz Mirəhmədov, seçilmiş əsərlər, nəşriyyat, ədəbiyyat, kitab, mədəniyyət.*

Ulker Tahir gizi Jabarova

## The role of Professor Aziz Mirahmedov in the preparation of editions of the classics

***Summary:*** *The article notes the textual activity of the famous critic and textologist, Honored Worker of Science, professor Aziz Mirahmedov and his merits in preparing the works of the classics for publication.*
***Key words:*** *Aziz Mirahmedov, selected works, publishing, literature, book, culture.*

Улькер Тахир кызы Джабарова

## Роль профессора Азиза Мирахмедова в подготовке изданий произведений классиков

***Резюме:*** *В статье отмечается текстологическая деятельность известного критика и текстолога, заслуженного деятеля науки, профессора Азиза Мирахмедова и его заслуги в подготовке произведений классиков к печати.*
***Ключевые слова:*** *Азиз Мирахмедов, избранные произведения, издательское дело, литература, книжная культура.*

Rəngarəng və çoxşaxəli yaradıcılıq yolu keçən ədəbiyyatşünas, kitabşünas, jurnalist, pedaqoq, tərcüməçi, leksikoqraf, tənqidçi, rəssamlıq, memarlıq kimi sənət növlərinin mahir bilicisi olan Əziz Mirəhmədov xalqımız üçün zəngin irs qoymuşdur.

Gənc yaşlarından müəllim kimi fəaliyyətə başlayan Ə.Mirəhmədov görkəmli Azərbaycan alimləri Həmid Araslı və Məhəmməd Arif Dadaşzadə tərəfindən AMEA-nın Nizami adına Ədəbiyyat və Dil İnstutuna dəvət edilir. O, 1955-ci ildə "Mirzə Ələkbər Sabirin həyat və yaradıcılığı mövzusunda namizədlik, 1976-cı ildə "Cəlil Məmmmədquluzadə və XX əsrin əvvəllərində Azərbaycan dövri mətbuat məsələləri" mövzusunda doktorluq dissertasiyaları müdafiə edir.





Əziz Mirəhmədov yaradıcılığa hələ tələbə ikən başlamış, ilk məqaləsi 1938-ci ildə "Müəllim" qəzetində çap olunmuşdur. Sonradan 500 dən çox elmi-tənqidi və publisistik əsərləri, 17 monoqrafiyası, 18 kitabı çap edilmişdi.

Əziz Mirəhmədov çoxcəhətli elmi fəaliyyətində Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olan kitab və kitabçılıq işinə yüksək dəyər vermiş, kitabşünaslığa və mətnşünaslığa dair elmi fikirlər söyləmişdir. Alim klassik ədəbiyyatın toplanmasında, hazırlanmasında əvəzsiz xidmətlər göstərmişdir.

Ə.Mirəhmədov, Azərbaycan ədəbiyyatının ədəbiyyatımızın böyük klassikləri N.Gəncəvi, M.Füzuli, M.P.Vaqif, Məhəmməd Hadi, A.Bakıxanov, M.F.Axundzadə, İsmayıl bəy Qutqaşınlı, C.Məmmədquluzadə, M.Ə.Sabir, A.Şaiq, Ə.Ağaoğlu və başqa bir çox nümayəndələrin yaradıcılığını tədqiq etmiş, əsərlərinin elmi və kütləvi nəşrlərini hazırlamışdır. "Azərbaycan yazıçısıları vətən haqqında" əsəri onun mətnşünaslıq fəaliyyətində ilk işlərindən biridır. 1946-cı ildə nəşr olunmuş bu kitabda Azərbaycan klassik şairlərinin əsərlərindən, o cümlədən vətənə həsr olunmuş misralar, beytlər, bəndlər verilmişdir. Bu iş müəllimləri tərəfindən yüksək qiymətləndirilmişdi. Ə.Mirəhmədov yazırdı: "Bir gün ədəbiyyat muzeyinin yanından keçib, dənizə tərəf gedirdim, məni küçənin əks tərəfindən çağırdılar, gördüm ki, Məmməd Arif müəllimdir, tez onun yanına getdim, salamlaşıb hal-əhval tutandan sonra dedi: Əziz, Həbib Səmədzadə dünyasını dəyişdi, Cəlil Məmmədquluzadənin əsərlərinin hazırlanması yarımçıq qaldı, sən bu işi bacararsan, sabah gəl, onun qovluğuna bax, gör nə edirsən. Arif müəllimin etimadı məni həvəsləndirdi və mən Mirzə Cəlilin əsərlərinin üçüncü cildini çapa hazırlamağa başladım. Bir il sonra cildin birinci hissəsi çapdan çıxdı. Bu, C.Məmmədquluzadənin o vaxta qədər az öyrənilmiş və çap kitablarına düşməyən əsərləri idi" [6, 53].

Onu da qeyd etmək lazımdır ki gənc tədqiqatçı Ə.Mirəhmədov həmin əsərlərin əksəriyyətini "Molla Nəsrəddin" jurnalının Bakı və Təbriz buraxılışları əsasında tərtib etmişdir. Onların çoxu vaxtilə jurnalda öz imzası ilə çıxmışdır. Ə.Mirəhmədov hazırladığı bu kitaba geniş qeydlər və şərhlər yazmış, hər felyetonun nəşr tarixini və imzasını göstərmişdir. Bundan başqa mətnlərdəki tarixi adlar, kitab, qəzet, jurnal, risale adları, bir çox gizli imzalar izah edilmiş, rus, ərəb, farsca parçaların, ifadələrin tərcüməsi verilmişdir. Cildin ikinci hissəsi də tərtib olun-muşdu, lakin o dövrün çətinlikləri ilə əlaqədar olaraq bu hissə çap edilməmişdir.

Ə.Mirəhmədov gənclik illərində Mirzə Cəlilin əsərlərinin çapa hazırlanması və nəşr məsələləri ilə məşğul olmuş, sonrakı illərdə də bu işi ardıcıl olaraq davam etdirmişdir. 1950-ci illərdə o, ədəbin əsərləri üzərində mətnşünaslıq tədqiqatlarını genişləndirərək iki cildlik "Seçilmiş Əsərləri" nin kütləvi nəşrinə nail olumuşdur. Bu cildlərin birincisinə yazıçının nəsr əsərləri, xatirələri və tərcümeyi-halı, ikincisinə isə pyesləri, felyetonları, məqalə və məktubları daxil edilmişdir [6, s. 54].

Bir neçə il sonra Ə.Mirəhmədov Azərbaycan Dövlət Universiteti nəşriyyatında ədibin "Felyetonlar, məqalələr, xatirələr, məktublar" (1961) kitabın çap etdirmişdir. Cəlil Məmmədquluzadənin 1947-ci ildə buraxılan "Əsərləri" nin üçüncü cildi və iki cildlik "Seçilmiş əsərləri" əsasında tərtib edilən bu kitaba yeni əsərlər daxil edilmişdir. Onların içərisində ədibin öz imzasıyla buraxdığı felyetonları da var idi ki, bunların bir çoxu vaxtilə "Lağlağı" və "Dəli" imzası ilə çap olunmuşdur. Kitabın mündəricatını zənginləşdirən səbəblərdən biri də oraya yazıçının teleqram və

məktublarının salınması idi. Əvvəlki nəşrlərdən fərqli olaraq bu kitaba ədibin ailəsinə, qohumlarına və başqa şəxslərə aid 72 məktub və teleqramı daxil edilmişdir. "Şərhlər" hissəsi də geniş əhatəli idi [5,3].

Ə.Mirəhmədov bundan başqa Mirzə Fətəli Axundzadənin üç cildlik "Seçilmiş əsərlərinin" ikinci cildini (1951), Seyid Hüseynin "Naməlum məktublar"ını (1964), İsmayıl bəy Qutqaşınlının "Seçilmiş əsərləri"ni (1978), onun "El fəryadı" kitabını (1980), Mirzə Ələkbər Sabirin "Seçilmiş əsərləri"ni (1984) tərtib etmiş, Cəlil Məmmədquluzadənin müasirlərinin və qohumlarının xatirələrini qələmə alıb "Bakı" qəzetində dərc etdirmişdir. Tədqiqatçı M.Ə.Sabirin həyat və yaradıcılığından bəhs edən "Sabir (1953), həmçinin "Böyük ustadın yolu" (1946), "Böyük şair-demokrat" (1946), "Böyük Azərbaycan şairi" (1951), "Canlı sənət"(1952), "Sabir yaradıcılığında xalq mövzusu" (1956), "Böyük xalq şairi" (1957), "Sabirin arzuları" (1957), "Sabir haqqında" (1961), "İnqilabçı satirik" (1962), "Sabirin klassik irslə əlaqəsinə dair" (1970) və s. əsərlərin müəllifidir. Əziz Mirəhmədovun namizədlik dissertasiyası əsasında hazırladığı "Sabir" adlı monoqrafiyası xüsusi maraq doğurur.

Əziz Mirəhmədov Mirzə Ələkbər Sabirin xalqın maariflənməsində ana dilinin rolu, mənəvi şüurunun formalaşmasında əqli, milli əxlaqi tərbiyənin imkanları, məktəb, müəllim haqqında satirik şeirlərinin əhəmiyyətini diqqətli şəkildə nəzərdən keçirmişdir. Ə.Mirəhmədov ideya və mülahizələrini satirik şairin ("Sabir realizminin ideya-bədii mənbələri və tarixi kökləri", "Sabir və XX əsr Azərbaycan ədəbiyyatında satiranın bəzi məsələləri", "Sabir şeirinin həyata və ədəbiyyata təsiri" və s.) və ilk dəfə tədqiqata cəlb etdiyi materiallara istinadən, dövrün reallıqları fonunda təhlil edərək ümumiləşdirmişdir [4, s. 3].

İsmayıl bəy Qutqaşınlı irsinin araşdırılmasında Əziz Mirəhmədovun xidmətləri növbəti bir mərhələdir. O, ədibin "Səfərnamə" əsərinin bir parçasını üzə çıxarmış və "Rəşid bəy və Səadət xanım" adlı hekayəsi ilə birlikdə nəşr etdirmişdir. "Səfərnamə"ni çapa hazırlayarkən mətnin içərisində söylədiyi "Kağızın bu yeri cırıldığına görə sözün ardı oxumadı", "Bir söz oxumadı" kimi qeydlər yaxud bir neçə vərəq zədəli olduğuna görə oxunulmayan bəzi sətirlərin yerində kvadrat mötərizə, üç nöqtə qoyulması və bu haqda verilən məlumat onun bu mətnlərə çox məsuliyyətli yanaşdığını aydın şəkildə göstərir [1, s. 3].

Ə.Mirəhmədov kitaba yazdığı "Qəribə tale" adlı irihəcmli məqaləsində İsmayıl bəy Qutqaşınlının tərcümeyi-halı və yaradıcılığı ilə bağlı bir sıra məlumatları dəqiq və dolğun şəkildə qeyd edir. Alim tərəfindən aşkar edilən və şərti olaraq "Səfərnamə" adı ilə nəşr olunan əsər ədəbiyyatşünaslarla yanaşı coğrafiyaçılar, dilçilər, tarixçilər, etnoqraflar və başqa oxucular üçün də faydalıdır. O, əsəri tədqiq edərkən belə qənaətə gəlir ki, müəllif burada Azərbaycan, eləcə də Osmanlı imperiyasına daxil olan ərəb ölkələri haqqında da orijinal məlumatları kifayət qədər göstərmiş, həmçinin yazıçının əsərdə işlətdiyi dil, üslub, ifadə tərzi, lüğət tərkibinin oxucunu heyran qoyduğunu qeyd etmişdir [1, s. 3].

XX əsrin 80-ci illərində Ə.Mirəhmədov Əhməd bəy Ağaoğlunun həyatı, taleyi, ədəbi-mədəni irsi barəsində qiymətli tədqiqat əsərləri yazmışdır. Alimin öz sağlığında çap etdirə bilmədiyi "Əhməd bəy Ağaoğlu" adlı sanballı monoqrafiyası qızı, filologiya üzrə fəlsəfə doktoru Dilarə xanım Mirəhmədova tərəfindən 2014-cü ildə "Ərgünəş" nəşriyyatında işıq üzü görmüşdür. Professor Əhməd bəy





Ağaoğlunun (1869-1939) həyat yoluna həsr olunmuş bu monoqrafiyada onun jurnalistika, siyasət, ictimai fikir, bədii ədəbiyyat, elm sahələrində göstərdiyi çoxcəhətli, səmərəli fəaliyyəti nəzərdən keçirilir. Lakin bu kitab Ə.Mirəhmədovun yazdığı monoqrafiyanın tam mətni deyil, onun itmiş nüsxələri əsasında əldə olan səhifələrdir. O, 1990-cı ildə çap etdirmək istədiyi bu monoqrafiyası üçün müqəddimə yazmış, lakin həmin mətn tapılmadığına görə müəllifin "İlk sözü" bu kitab üçün də əsas götürülmüşdür [2, s. 3].

Əziz Mirəhmədov bu dəyərli kitabın "İslama görə müsəlmanlarda qadın", "Milli mətbuatın tərəqqisi yolunda", "Mollanəsrəddinçilərlə çiyin-çiyinə", "Milli məsələ haqqında", "Millət və millətçilik" və "Üç mədəniyyət", "ADR parlamentin sədr müavini" bölmələrində Əhməd bəy Ağaoğlunun fəaliyyətinin millətçilik-türkçülük, islamçılıq və Avropaçılıq kontekstində təhlil edir. O, XX əsrdə Şərq mənəvi dəyərləri ilə çağdaş Avropa dəyərlərini öz düşüncəsində və əsərlərində təhlil Akademik Əziz Mirəhmədovun "Əhməd bəy Ağaoğlu" kitabı hər şeydən əvvəl alimin XX əsr Azərbaycan ədəbi-tarixi prosesinin bütün ədəbi ictimai ziddiyyətlərinə, siyasi proseslərinə incəliklərinə qədər dərindən bələdliyi ilə diqqəti cəlb edir. O, XX əsrdə mövcud olan hər iki ədəbi cərəyanın-realizmin və romantizmin qüdrətli tədqiqatçısı, arxiv mədəniyyətinə dərindən sahib olan tədqiqatçı, mətnşünas alim idi. Kitabın "Şuşa, Tiflis, Peterburq, Paris" adlanan birinci bölməsi, həm tarixi, həm də müasirlik baxımından mənalıdır. Burada Əlimərdan bəyin Şuşa həsrəti, təhsil və gənclik illəri ilə bağlı nisgil dolu xatirələr yer alıb. Bu kitab onun milli mənəvi təkamülün zirvəsi, fikri inkişafının tarixi, fəlsəfi yekunu hesab etmək olar. Əziz Mirəhmədov Əhməd bəy Ağaoğlunun tarixdə hər nə varsa eləcə bütün ziddiyyətləri, mürəkkəbliyi ilə təqdim edir. Akademik bu əsərlərə düzgün mövqedən obyektiv elmi həqiqəti ortaya çıxara bilən tarixilik prinsipi ilə yanaşmışdır [2, s. 7].

Beləliklə, XX əsr Azərbaycan kitabşünaslıq və mətnşünaslıq elminin təşəkkülündə misilsiz xidmətləri olan Əziz Mirəhmədovun yaradıcılıq yolu ədəbi elmi fikrimizin naliyyətlərini bütün dolğunluğu ilə özündə əks etdirir.

## ƏDƏBİYYAT

1. *Qutqaşınlı, İsmayıl bəy. Əsərləri. - Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1967. - 140 s.*
2. *Mirəhmədov, Əziz. Əhməd bəy Ağaoğlu. - Bakı: Ərgünəş, 2003. - 216 s.*
3. *Mirəhmədov, Əziz. Azərbaycan jurnalistləri və naşirləri: Ensiklopediya. - Bakı: Ərgünəş, 2013. - 272 s.*
4. *Mirəhmədov, Əziz. Sabir. - Bakı: Şərq-Qərb, 2005. - 464 s.*
5. *Məmmədquluzadələr C. və H. Məktublar. - Bakı: Gənclik, 1994. - 120 s.*
6. *Əsgərli, Zaman. Alim ömrü. - Bakı: Elm, 2000. - 112 s.*